**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**

"Azmaş Lizinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təsisçisinə və Rəhbərliyinə:

***Şərti Müsbət Rəy***

Biz "Azmaş Lizinq" MMC-nin ("Şirkət") 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, "Şərti müsbət rəy üçün əsas" bəndində açıqlanan məsələlərin mümkün təsirləri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli əks etdirir.

***Şərti Müsbət Rəy üçün Əsaslar***

Şirkət maliyyə vəziyyəti haqqında hesabatında 31 dekabr 2023-cü və 2022-ci il tarixlərində 2,549,500 AZN məbləğində törəmə müəssisəyə investisiyanı iştirak payı metoduna əsasən tanımışdır. "Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları" adlı 10 №-li Maliyyə Hesabatının Beynəlxalq Standartına əsasən ana müəssisə törəmə müəssisəni konsolidə edərək, konsolidə edilmiş maliyyə hesabatlarını təqdim etməlidir. Şirkət qeyd olunmuş standandartda tələb olunduğu kimi konsolidə edilmiş maliyyə hesabatları hazırlamamışdır. Nəticədə, bu məsələnin maliyyə hesabatlarına təsirlərinin əhəmiyyətli olub olmadığını müəyyən edə bilmədik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

*Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti*

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda fərdi maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslərin nəzərinə çatdırmalıyıq.

5 sentyabr 2024-cü il

Azərbaycan, Bakı

Nexia EA

Azərbaycan Respublikası "NEXİA EA" QSC NEXİA EA "NEXIA EA" CJSC Azerbaijan Republic

## "AZMAŞ LİZİNQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 7 | 2,884,740 | 2,010,794 |
| Xidmətlərin göstərilməsi | | 120,515 | - |
| **Xalis faiz gəlirləri** | | **3,005,255** | **2,010,794** |
| Kreditlərin dəyərsizləşmə zərəri üzrə ehtiyat | | (175,161) | (31,484) |
| **Kreditlərin dəyərsizləşmə zərəri üzrə ehtiyatdan sonra xalis faiz gəliri** | | **2,830,094** | **1,979,310** |
| Ümumi və inzibati xərclər | 8 | (2,115,113) | (1,498,154) |
| Digər xərclər | 9 | (179,550) | (11,100) |
| Məzənnə fərqi zərəri | | - | (1,716) |
| **Vergidən əvvəlki mənfəət** | | **535,431** | **468,340** |
| Mənfəət vergisi xərci | 15 | (133,775) | (95,908) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **401,656** | **372,432** |

**Rəhbərlik adından:**

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ AZMAŞ LİZİNQ LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

| | |
|---|---|
| **Qaraxanova Fəridə Misirxanovna** | **Yaqubov Habil Elxan oğlu** |
| **Direktor** | **Maliyyə üzrə direktor müavini** |
| 5 sentyabr 2024-cü il | 5 sentyabr 2024-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

7-32-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditorların Rəyi 2-3-cü səhifələrdə yerləşir.

## "AZMAŞ LİZİNQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il | 1 yanvar 2022-ci il |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 19,975 | 556,289 | 590,375 |
| Ticarət və digər debitor borclar | 13 | 3,651,556 | 3,324,755 | - |
| Mal və material ehtiyatları | | 104,155 | - | 395,000 |
| Maliyyə lizinqinə xalis investisiya qoyuluşu | 12 | 29,512,292 | 27,778,875 | 20,210,384 |
| Ödənilmiş avanslar | | - | - | 2,451,530 |
| Verilmiş borclar | 14 | 852,972 | - | - |
| Əsas vəsaitlər | 10 | 621,353 | 457,823 | 366,492 |
| Təxirə salınmış vergi aktivi | 15 | 714,987 | 667,369 | 474,610 |
| Törəmə müəssisəyə investisiya | 16 | 2,549,500 | 2,549,500 | - |
| Digər aktivlər | | 72,862 | 74,329 | 643 |
| **CƏMİ AKTİVLƏR** | | **38,099,652** | **35,408,940** | **24,489,034** |
| **KAPİTAL** | | | | |
| Nizamnamə kapitalı | 19 | 2,285,100 | 1,500,100 | 200,100 |
| Yığılmış zərər | | (2,815,126) | (2,419,782) | (832,461) |
| **CƏMİ KAPİTAL** | | **(530,026)** | **(919,682)** | **(632,361)** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Borc vəsaitləri | 18 | 33,463,729 | 30,296,527 | 25,032,870 |
| Ticarət və digər kreditor borclar | 17 | 5,165,949 | 6,032,095 | 88,525 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **38,629,678** | **36,328,622** | **25,121,395** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **38,099,652** | **35,408,940** | **24,489,034** |

**Rəhbərlik adından:**

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ AZMAŞ LİZİNQ LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

**Qaraxanova Fəridə Misirxanovna**
**Direktor**

**Yaqubov Habil Elxan oğlu**
**Maliyyə üzrə direktor müavini**

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-32-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditorların Rəyi 2-3-cü səhifələrdə yerləşir

**"AZMAŞ LİZİNQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixinə qalıq** | **200,100** | **(832,461)** | **(632,361)** |
| İl üzrə xalis mənfəət | - | 372,432 | **372,432** |
| Nizamnamə kapitalının artımı | 1,300,000 | (500,000) | **800,000** |
| Elan olunmuş dividend | - | (1,459,753) | **(1,459,753)** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **1,500,100** | **(2,419,782)** | **(919,682)** |
| İl üzrə xalis mənfəət | - | 401,656 | **401,656** |
| Nizamnamə kapitalının artımı | 785,000 | - | **785,000** |
| Elan olunmuş dividend | - | (797,000) | **(797,000)** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **2,285,100** | **(2,815,126)** | **(530,026)** |

**Rəhbərlik adından:**

**Qaraxanova Fəridə Misirxanovna**
**Direktor**

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Yaqubov Habil Elxan oğlu**
**Maliyyə üzrə direktor müavini**

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-32-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditorların Rəyi 2-3-cü səhifələrdə yerləşir

**"AZMAŞ LİZİNQ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisindən əvvəl gəlir | | 535,431 | 468,340 |
| *Qeyri-nağd gəlir düzəlişlər:* | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | | 34,181 | 23,355 |
| Gözlənilən zərərlər üzrə ehtiyat | | 175,161 | 31,484 |
| Faizsiz verilmiş borcun ilkin tanınması zamanı zərər | | 128,255 | - |
| Faizsiz verilmiş borc üzrə faiz gəliri | | (46,226) | - |
| **Əməliyyat aktiv və öhdəliklərindən əvvəlki əməliyyat fəaliyyətindən yaranmış pul vəsaitləri** | | **826,802** | **523,179** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Maliyyə lizinqinə investisiya qoyuluşu | | (1,908,577) | (7,599,975) |
| Mal və material ehtiyatları | | (104,156) | (39,357) |
| Digər aktivlər | | (59,927) | (3,324,755) |
| Ticarət və digər debitor borclar | | (326,801) | 395,000 |
| Ticarət və digər kreditor borclar | | (875,884) | 6,011,561 |
| Ödənmiş avanslar | | - | 2,451,529 |
| Digər öhdəliklər | | 9,738 | (43,309) |
| | | (2,438,805) | (1,626,127) |
| Dividend ödənişi | | (797,000) | (1,459,753) |
| Ödənilmiş mənfəət vergisi | | (120,000) | (347,678) |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitləri** | | **(3,355,805)** | **(3,433,558)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNƏ YÖNƏLDİLMİŞ PUL VƏSAİTLƏRİ:** | | | |
| Nizamnamə kapitalının artırılması | | 785,000 | 800,000 |
| Verilmiş borclar | | (935,000) | - |
| Törəmə müəssəyə investisiya | | - | (2,549,500) |
| Əsas vəsaitlərin alınması | | (197,711) | (114,685) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitləri** | | **(347,711)** | **(1,864,185)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Alınmış/ödənilmiş borc vəsaiti,xalis | | 3,167,202 | 5,263,657 |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranmış xalis pul vəsaitləri** | | **3,167,202** | **5,263,657** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS AZALMA** | | **(536,314)** | **(34,086)** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin əvvəlinə** | 11 | **556,289** | **590,375** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, ilin sonuna** | 11 | **19,975** | **556,289** |

**Rəhbərlik adından:**

**Qaraxanova Fəridə Misirxanovna**
**Direktor**

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Yaqubov Habil Elxan oğlu**
**Maliyyə üzrə direktor müavini**

5 sentyabr 2024-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ AZMAŞ LİZİNQ LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

7-32-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir. Müstəqil Auditorların Rəyi 2-3-cü səhifələrdə yerləşir